# XƏYANƏTİN KƏSİŞMƏSİ



***Rüstəm Cabbarov 1979-cu ildə Özbəkistan Respublikasının Səmərqənd vilayətinin Urqut rayonunda anadan olub. 2003-cü ildə Özbəkistan Milli Universitetinin jurnalistika fakultəsində ali təhsilini başa vuraraq beynəlxalq jurnalistika ixtisasına yiyələnib.***

***1998-2000-ci illərdə "Respublika" qəzetində müxbir kimi fəaliyyət göstərib. 2000-2003-cü illərdə "Kənd həyatı" qəzetinin böyük redaktoru, 2003-cü ildən 2010-cı ilə qədər Özbəkistan Milli Xəbər Agentliyinin baş redaktorunun müavini vəzifəsini icra edib. 2010-2016-cı illərdə isə "Darakcı" qəzetinin baş redaktorunun müavini, sonra isə baş redaktoru olub. Davamlı olaraq Özbəkistanın dərgi, qəzet və elektron mətbuatında ictimai-siyasi, iqtisadi, ədəbi-kulturoloji, tarixi-publisist mövzulara həsr olunmuş yazıları ilə çıxış edir.***

***Rüstəm Cabbarov 20-dən cox bədii, publisistik və tərcümə kitabının müəllifidir. Şeirləri, hekayələri və publisistik məqalələri Azərbaycan, Özbəkistan, Hindistan və digər ölkələrdə çap olunub. O, dünyanın tanınmış klassiklərindən Gi de Mopassan, Edqar Po, Qabriel Qarsia Markesin əsərləri ilə yanaşı, Azərbaycan ədəbiyyatından Anar, Sabir Rüstəmxanlı, Vaqif Sultanlı, İlqar Fəhmi və digər yazıçıların hekayə, povest və romanlarını özbək dilinə çevirərək çap etdirmişdir. Bununla yanaşı, o xeyli bədii, sənədli və animasiya filmlərinin ssenari müəllifidir. Rüstəm Cabbarovun müəllifliyi ilə çəkilmiş "Vicdan" (2007), "Yoxsul adam" (2011), "Asragil" (2017) və "Namus" (2017) bədii filmləri Özbəkistan tamaşaçıları tərəfindən maraqla qarşılanmış, böyük şöhrət qazanmışdır.***

***Hazırda «Zamon Press" Nəşriyyat Evinin direktoru vəzifəsində calışan Rüstəm Cabbarov bir neçə dəfə Azərbaycanda işgüzar səfərdə olmuş, ölkəmizin ədəbi-mədəni və ictimai-siyasi həyatı ilə bağlı təəssüratlarını publisistik yazılarında əks etdirmişdir.***

***Uzun illər Özbəkistanda yaşayıb-yaratmış, İctimai TV-nin jurnalisti kimi fəaliyyət göstərmiş Ədalət Məmmədovun tərcüməsində təqdim olunan, detektiv janrında qələmə alınan "Xəyanətin kəsişməsi" povesti müəllifin Azərbaycan oxucuları ilə ikinci görüşüdür.***

*povest*

Hər gün idman kompleksində gənclərin addım səsləri və məşq prosesindəki qışqırtılar beton divarlara dəyib əks-səda verirdi.

Fəyaz turnikdə məşqini dayandıraraq, yorgun addımlarla trenajorda məşğul olan Məsudbəyə tərəf getdi.

- Göründüyü kimi nəticələrin pis deyil,- dedi. Sonra qolunu geniş acaraq trenajorun iki tərəfindən tutan Məsudbəylə zarafatlaşdı. - Yaxşı güç toplamalısan, toydan sonra lazım olacaq.

Fəyaz idman zalının digər tərəfində dzyo-do üzrə məşq edən gənclərə göz gəzdirdi. Nəsə soruşmaq istədiyi zaman əl telefonu zəng caldı.

-Zəng vuran Şərqiyədir, görəsən sakitlikdimi,- öz özünə danışaraq tələsik telefonu qulağına tutdu.

-Alo, Fəyaz, haradasız? Tez bura gəlin, kömək eləyin...

Telefonun səsi gücləndirilmiş rejimə qoyulduğuna görə, hər halda qızın həyəcanlı qışqırığını Məsudbəy də lap aydın eşitdi. Bir anda, trenajor kürsüsündən sıçrayaraq ayağa qalxdı.

-Alo, Şərqiyə!

-Təcili, kömək edin...

Əlaqə bu yerdə kəsildi. Cavanların hər ikisi narahatlıqla və kədərlə dolmuş gözlərini biri- birinə zilləyərək, bir neçə saniyə donmuş vəziyyətdə qaldılar. Sonra Fəyaz dərhal telefona zəng gələn nömrəni yığdı. Telefonda başqa bir qızın mülayim səsi eşidildi: "Abonentin telefonu söndürülüb".

-Məsud, deyəsən nəsə baş verib. Yataqxanaya gedək,- zaldan cölə cıxan zaman, telefonun ekranındakı saata nəzər saldı.-Saat doqquzu keçmişdi. Taksiyə minsək, görəsən nə qədər vaxta catarıq?

Məsudbəy çox həyəcanlıydı. Bir necə saniyə əvvəl baş vermiş hadisə onu tamamilə caşbaş salmışdı. Qızın özü nə dedi? Yalnız kömək istəyirdi. Niyə heç nəyi açıb aydın deməd? Niyə telefonu söndürdü? Onun Fəyazın dalınca getməsi görəsən düzdürmü? Axı Şərqiyə onu yox, ancaq Fəyazın özünü cağırdı!

İdman kompleksi adətən gecə saat on-onbirə kimi işləyirdi. Eyni vaxtda idman kompleksini başqaları da bir birinin dalınca tərk edirdilər. Çöldə küləkli şaxtalı hava insanı kəsirdi, buz bağlamış yollarda ehtiyatla hərəkət edən avtomobillər yerə düşən qarı taptalayaraq yarıb keçirdilər.

-Kaş maşın tez gedə?.. - Fəyaz onun fikrini başa düşüb qarlı yoldan gözlərini cəkərək dedi: -Darıxma, Nə olub? Təki sakitlik olsun.

Ümüdsüz halda yenə telefonun düyməsini basdı. Şərqiyənin telefonu söndürülmüşdü.

Qarlı-buzlu yolda şığıyıb gələn avtomobil gənclərin yanında dayandı. Fəyaz ona yaxınlaşıb gedəcəkləri ünvanı dedi. Qiyməti razılaşmadan qabaqda oturdu, arxada isə Məsudbəy əyləşdi.

-Qardaşım mümkünsə tez sürün, çox tələsirik, - Fəyaz sürücüyə təmkinli səslə dedi.

- Qardaşım yolu özün görürsən axı, belə yolda ancaq canından bezmiş insanlar sürətlə maşın sürərlər.

Məsudbəyin əl telefonunda səslənən tanış şən müsiqi səsi Fəyazı demək istədiyi sözdən cəkinməyə məcbur etdi. "Kimdir?" mənası verən gözlərini yoldaşına tikdi. Məsudbəy telefonu qulağına yaxınlaşdırdıb: - Hə ana, sakitlikdimi,- deməsi ilə Fəyaz yenidən ümüdsüzlüklə irəliyə baxdı.

Salonun icində ana-balanın telefon söhbətinin səbirsizliklə dinləməli oldu:

-Məsudbəy, oğlum, niyə belə gecikdin, hələ məşqdən cıxmamısanmı?

-Yox, ana, mühüm bir işim var. Bir iki saata onu görüb gəlirəm. Sakitlikdimi?

-Sakitlikdi, bu da... tionermi-pionermi nədi bilmirəm, onu bacınla işə salmağa calışırıq, ancaq işlədə bilmirik. Axşamkı seriala baxmaq istəyirik. Elə buna görə səni axtarmalı oldum...

Maqsudbəy alcaq səslə, televizoru necə yandırmağı izah edərək, "tez gəlməyə calışaram" deyərək telefonu söndürdü.

Bir ay əvvəl qohum əqrabə həvəslənərək binanın damına parabolik antena qoydurmuşdu. Əlliyə yaxın kanal göstərirdi. Bu seriallara həvəskar olan ana və bacısı üçün çox yaxşı məqam idi. Hələ də televizorun necə işlədilməsini yaxşı öyrənə bilmədikləri üçün, bəzi günlərdə elə bugünkü kimi telefonla zəng edib soruşurdular.

Yox, o indi bu barədə fikirləşmirdi, fikirləşmək də istəmirdi. Bir neçə dəqiqədən sonra yataqxanaya catacaqdılar. Bundan sonra isə hər şey məlum olacaqdı. Şərqiyə nəyə görə belə həyacanlı danışırdı? Onun səsi həqiqətən həyəcanlı idi. Niyə telefon söndü? Kim onun telefonunu söndürdü?

Fəyazda eynilə yaxşı vəziyyətdə deyildi. Göründüyü kimi, maşının salonunda da sakit otura bilmirdi. Hətda, qanadı olsaydı, getdikləri avtomobilin aynasından ucaraq, tez Şərqiyənin yanına catar, orada nə baş verdiyindən xəbər tutardı.

Bu anda yenə də Fəyazın telefonu zəng çaldı. Telefonun ekranında Şərqiyə ilə bir otaqda qalan Visalənin nömrəsi göründü.

- Visalə, sakitlikdimi, nə olub?

-Sakitlik deyil, - qızın vahiməli, ağladığı hiss olunan səsi eşidildi. - Haradasız? Tez gəlin.

-Nə olub? Şərqiyə yanınızdamı?

Yenə telefon söndü. Yenidən zəng etməyə Fəyazın ürəyi gəlmədi, dərindən ah cəkib, sürücüyə səsləndi: -Qardaşım, tez sürsən olmazmı,- özünü güclə ağlamaqdan saxlayaraq dedi.

Sürücü dillənmədi. Avtomobilin azda olsa sürət artırdığı his olundu.

...Qışın ən soyuq vaxtı, yeni ilin ilk günləri idi. Yataqxanada tələbələrin əksəriyyəti qış tətilini keçirmək üçün evlərinə getmişdi. Ancaq bir-iki otaqda işıq yanırdı.

Fəyazla addımba-addım gedən Məsudbəy, yaşlı qadının gözətçı otağında sakit kitab oxuduğunu görüb, xəyala getdi. Hər halda, bir şeyin baş verməsinə oxşamırdı. Fəyazı tanıdığına görə ona heçnə demədi. Qadın Fəyazın arxasınca keçmək istəyən Məsudbəyi saxladı: -Dayan, sən hara?

-Mənimlə birgədi,- Fəyaz arxaya dönərək yaşlı qadına tərəf bir iki addım atdı.-Xahiş edirəm, indi özüm çıxarıb yola salaçam.

Yaşlı qadın gözündəki eynəyin altından hər ikisini nəzərdən keçirib, Masudbəyə "buyurun" dedi. Fəyaz yenidən nəyisə yadına salaraq yaşlı qadından soruşdu: - Babulya, yataqxanaya mən çıxıb gedəndən sonra heç kim gəlməyibki?

Yaşlı qadın başını silkələdi. Sonra biraz qaşlarını dartaraq, fikirləşməli oldu: - Adı nə idi, Seryojamı, belə bir kök oğlan gəlmişdi, onun görnüşünü təsəvür etmək üçün hər iki qolunu geniş açaraq göstərdi.

Fəyaz Sirəci yaxşı tanıyırdı. Fizika fakultəsində oxuyurdu. Tətildə evə getməyib yataqxanada qalanlardan biri idi. Hansısa geçə klubların birində gözətçi işləyirdi. Görünür, işdən icazə vermədiklərinə görə, o da evə gedə bilməmişdi.

İkisidə tələsik addımlarla dördüncü mərtəbəyə,qızların otağına qalxdılar. Otağın cöl qapısı açıq idi.

-Nə olub? Fəyaz daxil olduğu ilə qapının ağzında onlarla qarşılaşan Visalədən soruşdu. Onun cavab verməyindən, pəncərənin qarşısındakı carpayıya gözü sataşdı, rəngi ağarıb getdi.

Şərqiyənin dəhşətli qışqırığından donub qalmış gözləri mənasız halda tavana tuşlanmışdı, çarpayıdan aslı qalan sol qolu ovcunda nəyisə möhkəm tutmuş vəziyyətdə, sağ qolu sinəsinin üstündə hərəkətsiz idi, qızın boynuna isə yaylıq ilan kimi dolanmışdı. Onda həyat nişanəsini tapmaq mümkün deyildi.

Üçüdə bu dəhşətli səhnə qarşısında tənha qalmışdılar. Məsudbəy birinci olaraq özünü əla ala bildi. Dərs zamanı belə hadisələr barədə çox keçmişdilər deyə elə vəziyyətdən çıxış yolu da ona məlum idi.

Ehtiyatla qızın cəsədinə yaxınlaşdı. Onun sallancaq vəziyyətdə qalan qollarını qaldıraraq: buz kimi soyumuş mərmər heykəlin sinəsinə qoydu.

-Masudbəy, Siz nə vaxt gəldiniz? Soruşdu və cavab gözləmədən ikinci sualını verdi - heç nəyə toxunub eləməmisiniz ki?

Sir sifəti dümağ ağarmış Visalənin sifətinin rəngi verilən sualdan sonra sanki yuxuda imiş kimi, fikirlərini cəmləşdirməyə calışdı:

-A? M...mən gələndə də, o elə bu vəziyyətdə yatırdı, ona görə də yaxın getmədim, dərhal,-əli ilə Fayazı göstərib,-telefonla zəng etdim.-Sonra öz səsindən qorxan kimi, ehtiyatla soruşdu. -O həlakmı olub?

Göründüyü kimi bu sualın cavabı yox idi. Ömründə ölü görməyən adam, carpayıda daş kimi yatan insan bədənini canlı kimi qəbul edərdi. Görünür, Visalə bir anlıq özünü itirsədə, önun ölümünü belə ağlına gətirməmiş, elə buna görə də telefonda bu barədə heç nə deməmişdi. İndi isə faciənin bütün mahiyyətini anlayaraq, üzünü örtərək, "yox-yox" deyərək ağlamağa başladı.

Fəyaz da qızın öldüyünü ancaq dostunun sözlərindən sonra bilmiş, başını tutaraq, hərəkətsiz dayanmışdı.

-Şərqiyə, axı siz nə etdiniz?! İndi nə olacaq?

Kədərli, çaşqınlıq içində vurnuxan Məsudbəy ilk olaraq özünü əla almağı bacardı.

-Visalədən, heç kimə heç nə deməmdinizmi? - soruşdu.

Visalənin qızaran gözlərinə artıq qan sızmışdı.

-Yox. Mən yuyunmaq üçün aşağı, birinci mərtəbəyə düşəndə, hələ saat səkkizin yarısı olmamışdı. Heç qırx beş dəqiqə cəkmədi. Mən qayıdanda qapı açıq idi. Şərqiyə evdə olanda həmişə qapını icərdən bağlayıb oturardı. Çıxanda isə açarla bağlayıb çıxardı. Təəccüblənərək, icəri girdim - o yenə ağlamağa başladı.

-Yataqxanada başqa kim ola bilər? - Məsudbəy yenidən Fəyaza üz tutdu.

Daniyar, birdə novbətci yaşlı qadının dediyi Sirac adlı oğlan. Bu gün Daniyar özünü pis hiss etdiyinə görə məşqə getməyib. Səhər tezdən yatağa girib yatıb. Mənimcə başqa heç kim qalmayıb. Ayın onbirindən sonra qayıdacaqlar.

-Sirac dediyiniz hansı otaqda qalır?

-Üçüncü mərtəbədə yeməkxananın yanındakı otaqda, - Fəyaz bunu dedikdə səsinin titrədiyini heç özü hiss etmədi.- O mən cıxdıqdan sonra gəlib, bunu aşağıda növbətci qadın da dedi. Birdə, uşaqlar onun davakar olduğunu söyləyirlər. Siracın bir qolu əyri olsun gərək. Qabaqlar hələ məktəbdə oxuyarkən bir nəfərin burnunu əzdiyinə görə milisə düşdüyünü eşitmişəm. İndi onun yanına gedərəm...

Məsudbəy onun qolundan tutub saxlamasaydı, o otaqdan güllə kimi çıxmağa hazır idi.

- Tələsmə, bizim nəsə etməyə haqqımız yoxdu, əvvəla milisə xəbər verməklazımdı. Ona kimi yataqxananın qapısı qarşısında durub, heç kimin daxil olmasına ya da çıxmasına yol verməməliyik.

-"02" düşə bilmirəm, - Məsudbəy iki-uç dəfə yığdıqdan sonra nə edəcəyini bilmirdi.

- Əl telefonu ilə düşə bilmirəm. Aşağıda yataqxananın telefonu varmı? Oradakı telefonla zəng etmək lazımdı... Tələsmə, bu nədir?

Onların üçü də eyni anda carpayının ayağının yanına düşməmüş alışqanı gördülər.

-Bu... Daniyarınkıdı,- Fəyaz qışqıraraq yerindən sıcradı. Məsudbəy onun otaqdan çıxıb getməsinə yol vermədi.

-Axı mən dedim, heç nəyə toxunmaq olmaz. Fəyaz sən aşağı düş, telefonla zəng et. Mən Daniyardan soruşaram.

-Bəs mən?-Visalə icini cəkərək Məsudbəydən soruşdu. - Mən burada tək qalmağa qorxuram.

-Yaxşı, siz burada oturun, aşağı özüm düşərəm. Ancaq burada olduğunuz zaman Sirac deyilən şəxsin otağa girməsinə icazə verməyin.

***(Davamı var)***

***Rüstəm CABBAROV,***
***Özbəkistan***